## Cəmil Əkbər

### Nə Deyəsən?

Söz çatmadı, yetişmədi, nadanları qandırmağa,
Kütbeyinə, kəmağıla, başıboşa nə deyəsən?
İşığını yandırmağa, ocağını qalamağa,
Vicdanı kəm, məsləki kəm, qəlbi daşa nə deyəsən?

Çağırırsan eşitməyir, dediyini qana bilmir,
Ocağına köz qoyursan, üfürürsən yana bilmir,
Qatlayırsan əyilməyir, ha döyürsən sına bilmir,
İnsanlığa qənim çıxan, qəlbi daşa nə deyəsən?

Zaman keçib, yaş ötsə də, saç-saqqalı ağarmayıb,
Yetişməyib dərrakəsi, nə kamalı ağarmayıb,
Əqidəsi, nə məsləki, nə amalı ağarmayıb,
Beylə ömür, beylə günə, beylə yaşa nə deyəsən?

Gül-çiçəkli yaz gəlsə də, sırsırası əriməyib,
Dəng eyləyir başımızı, nağarası kirimәyib,
Əzaları qarısada bir giləsi çürüməyib,
Beylə soyuq, beylə ayaz, payız, qışa nə deyəsən?

Çox deyirsən çoxu qanmır, az deyirsən azı qanmır,
Tar çalırsan tarı qanmır, saz çalırsan sazı qanmır,
Ərk edirsən ərki qanmır, naz edirsən nazı qanmır,
Filə hürən tulalara, alabaşa nə deyəsən?

Dinlədikcə qan qaralır, nifrət artır sözünə də,
Qəzəb artır, kin çoxalır, hiddət artır özünə də,
İstəmirəm boylanasan həyasızın üzünə də,
Beylə burun, beylə qulaq, beylə başa nə deyəsən?

Niyyəti pis bayquşlara, sar olana acıyıram,
Qəlbi dolu iblis, əqrəb, mar olana acıyıram,
El içində bədəməldən, xar olana acıyıram,
Beylə fikir, beylə xəyal, beylə huşa nə deyəsən?

Bir ha deyil, beş ha deyil, cəhalətdə gün keçirən,
Avamlıqla ömür sürüb, qəbahətdə gün keçirən,
Dava-dalaş, qal-qovğada, ədavətdə gün keçirən,
Beylə kifir, eybəcərə, beylə qaşa nə deyəsən?

*Cəmil Əkbər*, nə yazsan da sözlərinin əsəri yox,
Götürən yox faydasını, birkimsəyə səməri yox,
İtib-batır aralıqda, müjdəsi yox, nəməri yox,
Beylə səsə, beylə küyə, beylə guşa nə deyəsən?